**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin 2000-ci ildə qarşılıqlı əlaqələri haqqında**

**Protokol**

Bundan sonra "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Rusiya Federasiyası Daxili İşlər Nazirliyi,

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Rusiya Federasiyası Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında 1996-cı il 19 aprel tarixdə Moskvada imzalanmış Sazişin, həmçinin hər iki Tərəfin iştirakçı olduğu digər çoxtərəfli sazişlərin müddəalarının icrası məqsədi güdərək,

Tərəflərin qarşılıqlı əlaqələrinin effektivliyinin gələcəkdə də inkişaf etdirilməsi və gücləndirilməsi zərurətindən çıxış edərək,

Tərəflərin dövlətlərinin milli qanunvericiliklərində və beynəlxalq müqavilələrinə riayət etməklə 2000-ci ildə aşağıdakı tədbirlərin həyata keçirilməsi barədə razılığa gəldilər:

1. Tərəflər öz bölümlərinin praktiki əlaqələrinin, onların fəaliyyət istiqamətləri üzrə məsələlərin həlli və iş təcrübəsinin öyrənilməsi üçün mütəxəssislərin qarşılıqlı ezam edilməsi əsasında aşağıdakıları təşkil edəcəklər.

1.1. Rusiya Federasiyası Daxili İşlər Nazirliyi özünün aşağıda göstərilən xidmət sahələrinin hər birindən 4 sutka müddətinə göndərəcəyi 2 əməkdaşı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, əvvəlcədən razılaşdırılmış qaydada, həmçinin maliyyə şərtləri nəzərə alınmaqla, qəbul edəcək:

Mütəşəkkil cinayətkarlıqla mübarizə idarəsindən;

Cinayət axtarış idarəsindən;

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə idarəsindən;

Nəqliyyatda Baş daxili işlər idarəsindən;

Pasport-viza idarəsindən.

1.2. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi özünün aşağıda göstərilən xidmət sahələrinin hər birindən 4 sutka müddətinə göndərəcəyi 2 əməkdaşı Rusiya Federasiyası Daxili İşlər Nazirliyi, əvvəlcədən razılaşdırılmış qaydada, həmçinin maliyyə şərtləri nəzərə alınmaqla, qəbul edəcək:

Mütəşəkkil cinayətkarlıqla mübarizə idarəsindən;

Cinayət axtarış baş idarəsindən;

Narkotiklərlə mübarizə idarəsindən;

Nəqliyyatda Baş polis idarəsindən;

Pasport-qeydiyyat idarəsindən.

1.3. Mütəxəssislərin mübadiləsi üzrə qrupların tərkibi, qalma müddəti və proqramı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Beynəlxalq əməkdaşlıq idarəsi və Rusiya Federasiya Daxili İşlər Nazirliyinin Xarici əlaqələr və hüquq işlər baş idarəsinin Beynəlxalq əməkdaşlıq idarəsi vasitəsi ilə qabaqcadan razılaşdırılacaqdır.

2. Tərəflər digər Tərəfdən daxil olmuş yardım haqqında sorğuların icrasını mümkün qədər qısa müddət ərzində, lakin onların daxil olduğu vaxtdan ən geci 30 gün, xüsusi hallarda isə müvafiq xahiş əsasında ən geci 10 gün müddətində təmin edirlər.

3. Hər bir Tərəf sorğu edən Tərəfin xahişi üzrə sorğu edilən Tərəfin dövlətinin qanunvericiliyində göstərilən qaydada və şərtlər əsasında yardım haqqında sorğuların icrasında onun nümayəndələrinin iştirakının mümkünlüyünü təmin edəcək.

4. Tərəflər razılaşdırılmış müddət ərzində, aşağıdakı cinayətlərin qarşısının alınması, aşkar edilməsi, aradan qaldırılması və açılması üçün, ilk növbədə:

Şimali Qafqaz regionunda cinayətkar dəstələrin fəaliyyəti;

cənub-qərb istiqamətində hərəkət edən beynəlxalq qatarlarda cinayətkar dəstələrin fəaliyyəti;

strateji əhəmiyyətli xammalın və materialların, incəsənət və mədəni sərvətlərin, həmçinin təhlükəsizlik tələblərinə uyğun olmayan malların və materialların sərhəddən qanunsuz keçirilməsi;

narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi;

avtonəqliyyatın oğurlanması və qanunsuz dövriyyəsi;

silahların, döyüş sursatlarının və partlayıcı maddələrin qanunsuz dövriyyəsi;

dəmiryolu və su nəqliyyatı ilə daşınan yüklərin oğurlanmasına qarşı əlaqəli əməliyyatlar həyata keçirəcəklər.

5. Tərəflər qarşılıqlı əlaqələrini həmçinin:

Beynəlxalq kriminal polis təşkilatı (İnterpol);

MDB iştirakçısı olan dövlətlərin daxili işlər nazirləri Şurası;

MDB ərazisində mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayət növləri ilə mübarizəni Əlaqələndirmə Bürosu çərçivələrində də möhkəmləndirəcəklər.

6. Tərəflər 2000-ci ildən 2003-cü ilədək cinayətkarlıqla mübarizədə birgə tədbirlərin görülməsi haqqında Dövlətlərarası Proqramla nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi üçün qarşılıqlı əlaqədə olacaq, o cümlədən həmin Proqramda göstərilən beynəlxalq müqavilələrin layihələrinin işlənib hazırlanmasında öz nümayəndələrinin mövqelərinin razılaşdırılmasına səy göstərəcəklər.

7. Tərəflər cinayətkarlıqla mübarizə sahəsində Azərbaycan və Rusiyanın hüquq mühafizə orqanlarının qarşılıqlı əlaqələrinin və əməkdaşlığının daha səmərəli formalarını tənzimləyən müqavilə-hüquq bazasının yaradılması üzrə işi davam etdirəcəklər.

8. Tərəflər (digər Tərəfin sorğusu əsasında) normativ hüquqi aktlar, analitik-məlumatlar, metodik materiallar və dövri idarə nəşriyyatlarının mübadiləsini həyata keçirəcəklər.

8.1. Tərəflər həmçinin əməliyyat-axtarış, sorğu, kriminalistik və qarşılıqlı maraq doğuran digər, o cümlədən aşağıdakı sahələrə aid informasiya mübadiləsini həyata keçirəcəklər:

fəaliyyəti beynəlxalq xarakterli olan cinayətkar qrupların strukturu, tərkibi, əlaqələri və fəaliyyət dairəsi barədə;

narkotik vasitələr və psixotrop maddələrin qanunsuz istehsalı, daşınması, ticarəti ilə məşğul olan şəxslər və təşkilatlar barədə;

iqtisadiyyat sahəsində cinayət fəaliyyətinin üsul və metodları, xüsusilə ondan alınan pulların leqallaşdırılması, həmçinin Tərəflərin dövlətləri ərazisində birgə müəssisələrin yaradıcıları olan şəxslər barədə;

məhkəmə və istintaqdan yayınan və digər Tərəfin dövlətinin ərazisində olması ehtimal olunan şəxslər barədə;

fəaliyyəti oğurlanmış incəsənət əsərlərinin, əntiq və digər qiymətli əşyaların saxlanılması və qaçaqmalçılığı ilə bağlı olan şəxslər barədə;

cinayətkarlıqla mübarizədə tətbiq olunan müasir elmi-texniki nailiyyətlərin istifadə olunduğu kriminalistika ekspertizalarının keçirilməsinin yeni forma və metodları, həmçinin Tərəflərin ekspert-kriminalistika xidmətlərində olan xüsusi ağır cinayətlər üzrə mərkəzləşdirilmiş kriminalistika uçotlarının tamamlanması və kriminalistika uçotları üzrə yoxlamaların keçirilməsi barədə;

fəaliyyəti qeyri-leqal mühacirətlə, həmçinin uşaqların qanunsuz övladlığa götürülməsi və onların Tərəflərin dövlətlərinin ərazisindən çıxarılması ilə əlaqəli şəxslər və təşkilatlar barədə;

oğurlanmış nəqliyyat vasitələri, həmçinin avtonəqliyyat vasitələrinin oğurlanması ilə məşğul olan cinayətkar qruplar və şəxslər barədə.

9. Tərəflər, zərurət yarandıqda, daxili işlər orqanlarının (polisin) və daxili qoşunların fəaliyyətində istifadə olunan xüsusi vasitələrin, əmlakın, texnika və avadanlığın, proqram-texniki komplekslərin işlənib hazırlanması, istehsalı və tədarük edilməsində əməkdaşlıq haqqında bir-birinə təkliflər göndərəcəklər.

10. Tərəflər əməkdaşların və onların ailə üzvlərinin müalicə və sağlamlıq məsələlərinə dair əməkdaşlığın davam etdirilməsi üçün öz niyyətlərini təsdiq etməklə yanaşı, eyni zamanda 1995-ci il fevralın 17-də Minsk şəhərində imzalanmış tibbi xidmət və sanatoriya-kurort müalicəsi sahəsində daxili işlər nazirliklərinin əməkdaşlığı haqqında Sazişə müvafiq olaraq özlərinin tibb xidmətlərinə 2000-ci ildə sanatoriya-kurort idarə müəssisələrinin putyovkalarının mübadiləsinin həyata keçirilməsini tapşıracaqlar.

11. Tərəflər öz təhsil müəssisələri arasında əməkdaşlığın inkişaf etdirilməsini təşviq edəcəklər.

12. Tərəflər müvafiq razılaşmalar əsasında ekspert-kriminalistika sahəsində təcrübə keçmələr, əməli təcrübə və metodik tövsiyələr mübadiləsini təşkil edəcəklər.

13. Bu Protokol Tərəflərə öz dövlətlərinin qanunvericiliyinə və beynəlxalq müqavilələrinə uyğun olaraq digər müştərək və əlaqəli tədbirlərin keçirilməsinə maneçilik törətmir.

14. Tərəflər gələcəkdə əməkdaşlıq haqqında Protokola daxil edilməsi üçün tədbirlərə dair təkliflərlə 2000-ci il noyabrın 15-dək mübadilə edəcəklər.

Protokol Bakı şəhərində 4 fevral 2000-ci il tarixdə hər biri Azərbaycan və rus dillərində eyni qüvvəyə malik olan iki nüsxədə imzalanmışdır.

**Azərbaycan Respublikası Rusiya Federasiyası R.USUBOV**

**Daxili İşlər Nazirliyi tərəfindən Daxili İşlər Nazirliyi tərəfindən V.RUŞAYLO**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2964-2967.**